*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 19 oktyabr 2016-cı il № 81 (2096) Qiyməti 25 qəpik


## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# "Biz ordu quruculuğu istiqamətində böyük addımlar atmışıq"

## Azərbaycan Prezidenti İlham Əliyev dövlət müstəqilliyimizin bərpasının 25-ci ildönümünə həsr olunmuş rəsmi qəbulda çıxış edib

*Məlum olduğu kimi, oktyabrın 17-də Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümünə həsr olunmuş rəsmi qəbul təşkil edilib. Rəsmi qəbulda iştirak edən Prezident İlham Əliyev çıxış edərək ölkəmizin müstəqilliyini bərpa etməsindən danışıb.*



"25 il bundan əvvəl - 1991-ci il oktyabrın 18-də Azərbaycan Ali Soveti Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktını qəbul etmişdir. Beləliklə, Azərbaycan XX əsrdə ikinci dəfə müstəqilliyə qovuşurdu. 1918-ci ildə müsəlman aləmində ilk demokratik respublika Azərbaycanda qurulmuşdur. Haqlı olaraq fəxr edirik ki, biz müsəlman aləmində birinci idik. Bu dəfə - 1991-ci ildə isə Azərbaycan öz dövlət müstəqilliyini elan edən müttəfiq respublikalar arasında birincilər sırasında deyildi. Öz dövlət müstəqilliyini elan edən müttəfiq respublikalar arasında Azərbaycan sayca 13-cü idi. Bu, tarixdir. Biz tarixi bilməliyik, yaddan çıxarmamalıyıq. Hesab edirəm ki, Azərbaycan o vaxt öz dövlət müstəqilliyini daha əvvəl elan edə bilərdi. Bu qədər gözləmək lazım deyildi. Xüsusilə onu da yaddan çıxarmamalıyıq ki, Sovet İttifaqının özəyini təşkil edən Rusiya öz dövlət müstəqilliyini avqust ayında, bizdən iki ay əvvəl elan etmişdi."

Dövlətimizin başçısı çıxışında müstəqilliyimizin əldə edilməsində Ümummilli Liderimizin xidmətlərini qeyd edib. "Hələ 1990-cı ildə ulu öndər Heydər Əliyev müstəqillik yolunda çox önəmli və ciddi addımlar atmışdır. 20 Yanvar faciəsindən sonra o, birinci şəxs idi ki, Sovet rəhbərliyini pislədi, Qanlı Yanvar faciəsini törədənlərə qarşı öz iradlarını irəli sürdü, onları ittiham etdi, Sovet hökumətini, onun rəhbərinin fəaliyyətini pislədi. Sovet İttifaqı Kommunist Partiyasının sıralarını tərk etdi və bu, müstəqillik uğrunda birinci addımlar idi. Ondan sonra, artıq Naxçıvan Muxtar Respublikasının rəhbəri kimi 1990-cı ilin noyabr ayında Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adını dəyişdirərək, "Sovet Sosialist" sözlərini oradan çıxardı. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı o vaxt Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvanın dövlət bayrağı kimi elan edilmişdir və Azərbaycan Ali Soveti qarşısında vəsatət qaldırılmışdır ki, burada da bu addım atılsın. Əfsuslar olsun ki, bunu etmədilər. 1991-ci ilin əvvəllərində Sovet İttifaqının saxlanılmasına dair Azərbaycanda referendum keçiriləndə Naxçıvanda Heydər Əliyevin təşəbbüsü ilə referendum keçirilməmişdir. Bütün bu addımlar müstəqillik yolunda atılan addımlardır. Digər tərəfdən bütün bu addımlar onu göstərir ki, ulu öndər Heydər Əliyev Azərbaycanın dövlət müstəqilliyinin təşəbbüskarıdır, onun banisidir."

- Azərbaycanda Heydər Əliyevin rəhbərliyi ilə aparılmış siyasi islahatlar demokratiyanın inkişafına, insan haqlarının qorunmasına hesablanmışdır, - deyə Prezident İlham Əliyev çıxışına davam edib. - Azərbaycan o illərdə beynəlxalq təcriddən çıxa bilmişdir. Çünki ölkəmiz haqqında dünyada informasiya yox idi. Ermənistan erməni lobbisinin imkanlarından istifadə edərək bizə qarşı qarayaxma kampaniyası aparırdı. Bizim isə cavab vermək, reallığı dünya birliyinə çatdırmaq üçün imkanlarımız yox idi. Yəni, beynəlxalq təcridə, informasiya mühasirəsinə son qoyuldu.

Azərbaycan o vaxt çətin iqtisadi vəziyyətlə üzləşmişdi. Bizim sənayemiz demək olar ki, dağılmışdı, inflyasiya minlərlə faizlə ölçülürdü. Əlbəttə, belə vəziyyətdə xarici sərmayə olmadan ölkə iqtisadiyyatı inkişaf edə bilməzdi. İqtisadiyyat inkişaf edə bilməsə, təbii ki, ölkə müstəqil həyat sürə bilməzdi. Ona görə 1994-cü ildə Heydər Əliyevin təşəbbüsü ilə "Əsrin kontraktı" imzalanmışdır ki, artıq o vaxtdan 22 il ötür. Amma bu gün də "Əsrin kontraktı" ölkəmizin inkişafında, güclənməsində öz rolunu oynayır. Azərbaycan tarixdə ilk dəfə olaraq Xəzər dənizini xarici investorlara təqdim etdi. Azərbaycana milyardlarla dollar həcmində investisiya qoyuldu və ölkəmiz inkişaf etməyə başladı. 1996-cı ildə "Şahdəniz" qaz yatağının işlənilməsi üzrə kontrakt imzalanmışdır. Bu gün həm Azərbaycanın, həm regionun və müəyyən dərəcədə Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında "Şahdəniz" yatağının xüsusi yeri var.

**(Ardı 2-ci səhifədə)**

## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# “Biz ordu quruculuğu istiqamətində böyük addımlar atmışıq”

(Əvvəli 1-ci səhifədə)

Azərbaycan 1993-2003-cü illərdə öz inkişaf və sabitlik dövrünü yaşayırdı. Bu, müstəqilliyimizin ikinci dövrü idi. Bir daha qayıdıram müstəqilliyimizin ilk illərinə. Əgər o vaxt Heydər Əliyev kimi dahi şəxsiyyət - millətə canı, qanı ilə bağlı olan insan hakimiyyətdə olsaydı, biz o bəlalarla üzləşməyəcəkdik. Ancaq tarix tarixdir. Biz tarixi dəyişdirə bilmərik. Bizim əsas vəzifəmiz ondan ibarətdir ki, ölkəmizi irəliyə aparaq, gücləndirək və müsbət meyillər əsasında inkişafı təmin edək.

Müstəqil dövlətçiliyimizin ötən onilliyinə nəzər yetirən ölkə başçısı fəxr hissi ilə vurğulayıb ki, biz 2003-cü ildən bu günə qədər iqtisadi sahədə analoqu olmayan inkişaf dövrünü keçmişik və yaşayırıq. "İqtisadiyyat üç dəfə artmışdır. Heç bir başqa ölkədə bu qısa müddət ərzində iqtisadiyyat üç dəfə artmayıb. Sənaye istehsalı da üç dəfə artmışdır. Biz yoxsulluğa son qoyduq. Təxminən 50 faiz səviyyəsində olan yoxsulluq 5 faizə düşüb. İşsizlik ilə çox ciddi mübarizə aparılır. İşsizlik çox aşağı səviyyədədir. Azərbaycan regionlarının inkişafına start verildi. Dövlət proqramları icra edilməyə başlamışdır və bunun nəticəsində bölgələrdə 1 milyon 300 mindən çox iş yeri yaradılmışdır. Bölgələr canlandı, şəhərlərimiz abadlaşdı, müasir infrastruktur layihələri icra edildi. Biz elektrik enerjisini, qazı idxal edən ölkədən ixrac edən ölkəyə çevrildik. Azərbaycanda sosial məsələlərin həllinə çox böyük diqqət göstərilirdi və göstərilir. Maaşlar,



pensiyalar son 13 il ərzində dəfələrlə artmışdır. Sosial infrastruktur layihələri icra edilir. Üç mindən çox məktəb, 600-dən çox tibb ocağı, bölgələrdə 40-dan çox İdman Olimpiya Mərkəzi tikilmişdir. Bütün bunlar son illər ərzində əldə edilmiş nailiyyətlərdir."

Respublikamızın gündən-günə artan iqtisadi əlaqələrindən söhbət açan dövlət başçısı bildirib ki, Azərbaycan bu gün dünyada çox etibarlı tərəfdaş kimi tanınır. "Çünki bizim iştirak etdiyimiz bütün layihələr əməkdaşlığa hesablanıb. Biz hesab edirik və həyat göstərir, düz hesab edirik ki, ölkələr arasındakı əməkdaşlıq bəzi problemləri aradan götürə bilər. Enerji siyasətimiz xoşniyyətlidir. Bundan heç vaxt hansısa başqa məqsəd üçün istifadə etməmişik. Bütün digər regional təşəbbüslər də əməkdaşlığa hesablanır, o cümlədən nəqliyyat sahəsində. Biz bu gün "Şərq-Qərb" dəhlizinin yaradılmasında fəal rol oynayırıq. Bakı-Tbilisi-Qars dəmir yolu yaxın aylarda istismara veriləcək. Beləliklə, biz özümüzü daha da gözəl imkanlarla təmin etmək üçün Avropanı Asiya ilə birləşdiririk. Çünki bu dəhliz bizə çox böyük iqtisadi mənfəət gətirəcək. Bu dəhlizdən keçən yüklərin həcmi on milyonlarla ton səviyyəsində olacaq. Bununla bərabər, biz "Şimal-Cənub" dəhlizini də yaradırıq. Yenə də təşəbbüs göstərmişik, yenə də regional əməkdaşlıq formatını təqdim etmişik və bu, artıq yaradılıb. Bu da bizə əlavə on milyonlarla ton yük daşımaq imkanları verəcək."

- Əgər 1990-cı illərin əvvəllərində ulu öndər Heydər Əliyev hakimiyyətdə olsaydı, heç vaxt Ermənistan-Azərbaycan müharibəsi başlamazdı, - deyən Prezident İlham Əliyev vurğulayıb ki, Azərbaycan hərbi qüdrətini gücləndirib və bu problemi istənilən yolla həll etməyə qadirdir. "Ancaq bu gün biz bu problemi həll etməliyik. Bunun həm diplomatik yolları var, həm digər yolları. Biz ordu quruculuğu istiqamətində çox böyük addımlar atmışıq. Bu gün beynəlxalq ekspertlər də qeyd edirlər ki, Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Biz bunu bilirdik, ancaq bu gün bunu bütün dünya bilir. Bu ilin aprelində təmas xəttində baş vermiş hadisələr Azərbaycan Ordusunun gücünü bir daha göstərdi. Bizim ordumuz əks-hücum əməliyyatı keçirərək Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsini işğalçılardan azad etdi. Orada indi Azərbaycan bayrağı dalğalanır. Bu, bizim gücümüzü göstərir. Biz gücümüzü bilirik, gücümüzə əmінik və düşmənin istənilən hədəfini məhv edə bilərik. Sadəcə olaraq çalışırıq ki, məsələ sülh yolu ilə həll edilsin."

Dövlət başçısı çıxışında ölkəmizin bəşəri dəyərlərə daim önəm verdiyini bildirərək qeyd edib ki, Azərbaycan son illər ərzində dünya miqyasında multikulturalizm mərkəzinə çevrilib. "Ölkəmizdə keçirilən beynəlxalq tədbirlər, dünya forumları, sivilizasiyalararası, humanitar, mədəniyyətlərarası dialoq forumları bunu göstərir. Biz nəinki ölkə daxilində bu məsələləri lazımi səviyyədə tənzimləyirik, eyni zamanda, bir çox ölkələr üçün yol göstəririk. Biz istəyirik ki, bu nümunədən istifadə etsinlər. Əgər etsələr, yenə də gərginlik azalar. Çünki bir çox hallarda müharibələr dini və məzhəb zəminində aparılır. İndi yan-yörə, hər tərəf alovlanır, yanır. Azərbaycanda sabitlik hökm sürür, inkişaf dinamikası güclənir. Bizim ölkəmizdə yaşayan bütün xalqların nümayəndələri özlərini rahat hiss edirlər. Onlar hamısı bizim qardaşlarımızdır, dəyərli vətəndaşlarımızdır. Bu da bir nümunədir. Bu, böyük bir sərvətdir.

Çıxışına yekun vuran Azərbaycan Prezidenti İlham Əliyev qeyd edib ki, 25 il böyük tarixdir. “Biz artıq bütün dünyaya sübut etmişik ki, müstəqil həyat yaşaya bilərik, uğurla yaşaya bilərik. Biz gələcəkdə bu yolla gedəcəyik, müstəqil siyasət aparacağıq. Xalqın iradəsi əsasında irəli gedəcəyik. Müstəqilliyimiz dönməzdir, əbədidir. Müstəqilliyimizin möhkəmlənməsində bütün Azərbaycan xalqına yeni uğurlar arzulayıram.

Yaşasın müstəqil Azərbaycan Respublikası!”

**AZƏRTAC-ın materialları əsasında**

# Müdafiə naziri silah və hərbi texnikanın istismarının qış rejiminə keçirilməsi ilə əlaqədar tapşırıq verib



Müdafiə naziri general-polkovnik Zakir Həsənov Silahlı Qüvvələrin bütün hərbi hissə və bölmələrində silah və hərbi texnikanın istismarının qış rejiminə keçirilməsi ilə əlaqədar tapşırıq verib.

Silah və texnikanın qış aylarında fasiləsiz və dayanıqlı istismarını təmin etmək məqsədilə bütün hərbi hissələr mərkəzləşdirilmiş qaydada yanacaq-sürtgü materialları, digər zəruri ehtiyat hissələri və avadanlıqlarla təmin edilib.

Hərbi hissələrdə fəaliyyətə başlayan texniki xidmət məntəqələrində silahlanmada olan bütün döyüş və xüsusi texnikaların yanacaq-sürtgü materialları dəyişdirilir, filtr və aqreqatlara planlı şəkildə qulluq göstərilir, elektrik və hidravlik sistemləri yoxlanılır.

Nəzərdə tutulan fəaliyyətlər müəyyən edilmiş müddətdə



başa çatdıqdan sonra silah və hərbi texnikanın hər bir nümunəsinin təhlili aparılaraq nəticələri barədə yuxarı komandanlığa məruzə olunacaq.

Bütün növ silah və texnikanın qış rejimində istismara hazırlığı ilə əlaqədar görülən tədbirlər hərbi hissələrin döyüş qabiliyyətinin artırılmasına hesablanıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

*Azərbaycanın Dövlət Müstəqilliyi - 25*

# “Müstəqil Azərbaycan Respublikası bu gün hər bir vətəndaşımız və xaricdə yaşayan soydaşımız üçün əsl qürur mənbəyidir”

*Tarixən qüdrətli dövlətlər yaratmış, qədim və zəngin dövlətçilik ənənələrinə malik Azərbaycan üçün müstəqillik, suverenlik xalqımızın tarixi nailiyyəti kimi müstəsna əhəmiyyətə malikdir. XX yüzilin əvvəlində vətənpərvər övladlarının köməyi ilə Şərqdə ilk demokratik dövləti - Azərbaycan Xalq Cümhuriyyətini yaratmış xalqımız öz müstəqillik arzusunu yenidən gerçəkləşdirdi. Təəssüflər olsun ki, AXC cəmi 23 ay mövcud oldu və bolşevik Rusiyası tərəfindən süquta uğradıldı.*

Keçmiş Sovetlər Birliyinin süqutundan sonra Azərbaycan yaranmış tarixi şəraitdən bəhrələnərək yenidən tarixi istəyini gerçəkləşdirdi - müstəqilliyini bərpa etməyi bacardı. 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında "Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı" qəbul olundu.

Dövlət müstəqilliyimizin başlanğıcı hesab edilən həmin tarixi zamandan 25 il keçir. Ötən müddət ərzində keşməkeşli bir mərhələ adlamış Azərbaycan Respublikası iqtisadi, siyasi və hərbi baxımdan möhkəmlənib, dünya dövlətləri arasında öz layiqli yerini tutub. Bu günlərdə ölkəmizin hər yerində, o cümlədən Silahlı Qüvvələrimizə məxsus qoşun növlərində və hərbi hissələrdə xalqımızın qazandığı tarixi nailiyyət bayram kimi qeyd edilir.

Ölkəmizdə Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümünün təntənəli surətdə qeyd olunması ilə bağlı Prezident İlham Əliyev oktyabrın 11-də sərəncam imzalayıb.

Prezidentin sərəncamında deyilir: "Ötən 25 il ərzində Azərbaycan xalqı dövlət quruculuğu prosesində ən ümdə amal, arzu və niyyətlərini gerçəkləşdirərək bütün sahələrdə əldə etdiyi nailiyyətlərlə haqlı olaraq fəxr edə bilər. Uğurlu daxili və xarici siyasətimiz sayəsində dövlətçilik ənənələrimiz möhkəmlənmiş, iqtisadiyyatımız inkişaf etmiş, mədəniyyətimiz zənginləşmişdir. Müstəqil Azərbaycan Respublikası bu gün hər bir vətəndaşımız və xaricdə yaşayan soydaşımız üçün əsl qürur mənbəyidir".

Ancaq bəlli olduğu kimi, müstəqilliyin ilk illəri Azərbaycan üçün heç də asan olmadı, xalqımız dərin siyasi, iqtisadi və sosial böhranla, ağır xarici və daxili təhdidlərlə, əvəzolunmaz itkilərlə üz-üzə qaldı. Əslində, beynəlxalq miqyasda güclü siyasi, maliyyə dəstəyinə malik olan Ermənistanın işğalçılıq niyyəti təkcə ölkəmizin müəyyən ərazilərinin zəbt edilməsi təhlükəsini doğurmamışdı, həmçinin, bütövlükdə Azərbaycan dövlətçiliyi üçün tarixi sınaq anına çevrilmişdi. Bir yandan hiyləgər qonşularımızın ərazi iddiası ilə apardığı müharibə, digər tərəfdən səriştəsiz ölkə rəhbərliyinin hakimiyyət təcrübəsizliyi xalqı uçurum qarşısına gətirib çıxarmışdı. Həmin mürəkkəb və keşməkeşli illərdə ölkəmizin rəhbərliyində təmsil olunmuş qüvvələrin siyasi baxımdan qeyri-peşəkarlığı və hadisələrin inkişafını obyektiv dəyərləndirə bilməməsi nəticəsində xalqımız ağır sınaqlardan keçməli olmuşdu. Xalqımızın təkidli tələbilə zəmanəmizin böyük dövlət xadimi Heydər Əliyev hakimiyyətə qayıtdı, bundan sonra vəziyyət tədricən dəyişməyə başladı.

Tarixi şəxsiyyətlərin böyüklüyü, əslində, onların əməllərinin əhəmiyyətilə cəmiyyətin inkişafına göstərdiyi təsirin miqyası ilə ölçülür. Sovet dönəmində uzun illər Azərbaycana rəhbərlik etmiş Heydər Əliyev respublikamız üçün böyük işlər görmüşdü. Ümummilli Liderin Azərbaycan naminə ən böyük xidməti isə onun dövlətçiliyimizi xilas etmə missiyası idi.



Müstəqilliyimizin ilk illərində Ulu Öndərin rəhbərliyi və yetərincə gərgin fəaliyyəti nəticəsində Azərbaycan xalqı tədricən tənəzzül və xaosdan azad olmağı bacardı. Dövlət çevrilişi cəhdlərinə, müxtəlif maneələrə baxmayaraq, Prezident Heydər Əliyev bütün maneələri cəsarət və qətiyyətlə dəf edərək ölkəmizi ağır böhrandan xilas etdi. Bundan sonra bir sıra hüquqi islahatlar aparıldı, müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası qəbul edildi, siyasi sistem möhkəmləndirildi, ölkəmizin uğurlu inkişafı üçün möhkəm zəmin yaradıldı. Mahiyyət etibarilə həmin illər ərzində görülmüş işlər ölkəmizin hazırkı uğurlu inkişafını müəyyən etdi.

Ümummilli Liderin rəhbərlik etdiyi 1993-2003-cü illər ölkəmiz üçün həlledici illər oldu, yəni, o illərdə dövlətçiliyimizin möhkəm təməli qoyuldu. Azərbaycanın istər daxili, istərsə də xarici siyasətlə bağlı strateji xətt müəyyən edildi, Azərbaycan faktiki olaraq dünya birliyinə qovuşdu.

Azərbaycan üçün taleyüklü sahə olan ordu quruculuğunda da ciddi islahatların həyata keçirilməsinə başlanıldı. Orduda baş alıb gedən neqativ halların aradan qaldırılması, mənəvi-psixoloji iqlimin sağlamlaşdırılması üçün ardıcıl tədbirlər görüldü. Hərbi intizamın, vahid rəhbərlik prinsipinin möhkəmləndirilməsi, ordunun maddi-texniki təminatının ilbəil yüksəldilməsi nəticəsində Silahlı Qüvvələrdə köklü dəyişikliklər baş verdi.

Müasir Azərbaycan dövlətinin qurucusu, ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi strategiya onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilir. Hazırda ölkəmiz dünya miqyasında sürətlə inkişaf edən ölkələr sırasında öncül yerlərdən birini tutur. Azərbaycan bu gün regionun ən güclü və nüfuzlu dövlətinə çevrilib.

BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv qəbul olunması Azərbaycanın diplomatiya tarixində ən böyük nailiyyətlərindən biridir. Azərbaycan 2011-ci ildə BMT-yə üzv olan 193 dövlətdən 155 dövlətin dəstəyini əldə edib, 2012-2013-cü illər üzrə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə keçirilən seçkilərdə inamlı qələbə qazandı. Bu, Ulu Öndərin davamçısı Prezident İlham Əliyevin rəhbərliyilə ölkəmizin son illər dünya miqyasında artan siyasi nüfuzunun göstəricisinə çevrildi.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev də Silahlı Qüvvələrin fəaliyyətini daim diqqətində saxlayır. Ordu quruculuğu bu gün Azərbaycan rəhbərliyinin ən çox önəm verdiyi strateji və dövlət əhəmiyyətli məsələlərdəndir.

Dövlətimizin və müstəqilliyimizin qarantı olan Azərbaycan Silahlı Qvvələri bu gün ən müasir silah və texnika ilə silahlanıb, yüksək təchizata malikdir, yüksək intizama və döyüş hazırlığına nail olmuş qüdrətli güc strukturudur. Təsadüfi deyil ki, Azərbaycan Ordusu beynəlxalq reytinq təşkilatları tərəfindən ən güclü ordular sırasına aid edilir.

Silahlı Qüvvələrimizin bu gün nəyə qadir olduğu işğalçı Ermənistanın silahlı birləşmələrinə qarşı aprel döyüşlərində təsdiq edildi. Cəsur Azərbaycan zabit və əsgərlərinin gücü ilə cəbhəyani yaşayış məntəqələrimizə təhlükə yaradan yüksəkliklər düşməndən birdəfəlik təmizləndi. Bununla ordumuz sübut etdi ki, işğal edilmiş ərazilərimizi azad etməyə, Vətənimizin ərazi bütövlüyünü təmin etməyə qadirdir.

İftixar hissilə qeyd etməliyik ki, xalqımız azərbaycançılıq ideyaları ətrafında sıx birləşərək demokratik, hüquqi dövlət quruculuğu yollarında inamla addımlayır.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**

## Müdafiə naziri “Gələcək Qüvvələr Forumu 2016”-da iştirak edəcək

"Gələcək Qüvvələr Forumu 2016"-da iştirak etmək üçün Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Çexiya Respublikasının Müdafiə naziri cənab Martin Stropnitskinin dəvəti ilə Praqa şəhərinə səfərə gedib.

Forumda Silahlı Qüvvələrdəki ən son yeniliklər, müdafiə və təhlükəsizlik sahəsindəki elmi fəaliyyət və sənaye məsələləri nəzərdən keçiriləcək, həmçinin, beynəlxalq sülhməramlı əməliyyatlarda əməkdaşlıq və digər fəaliyyətlər müzakirə ediləcək.

Tədbir çərçivəsində Müdafiə naziri general-polkovnik Zakir Həsənov Çexiya Respublikasının Müdafiə naziri M.Stropnitski ilə və bir sıra görüşlər keçirəcək.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

**17 oktyabr 2016-cı il.**

Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 10 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Voskevan kəndində yerləşən mövqelərdən Qazax rayonunun Aşağı Əskipara kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Tərtər rayonunun Göyarx kəndi yaxınlığında, Goranboy və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

**18 oktyabr 2016-cı il.**

Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 4 dəfə pozub.

İşğal altında olan Xocavənd rayonunun Kuropatkino kəndi yaxınlığında, həmçinin, Tərtər, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

AZƏRBAYCAN ORDUSU

*Şimşəyi təbiətin qəzəbi bilmişəm, mehi kövrəkliyi, yeli coşqusu. Yağışı duruluq, təmizlik bilmişəm...*

Ön xətdən reportaj

# Şimşək çaxacaq!..



Bu düşüncələrin, bu düşüncələrdən sızıb ruhuma ortaq olan bir kövrəkliyin cazibəsindəyəm. Adilikdən uzaq kövrəklikdi - istəyə dirsəklənən, məni məndən alan kövrəklikdi, bu biçimsiz kövrəklik Azərbaycan əsgərinin görüşünə (səngərdə görüşünə!) təşnəlikdi!..

...Bu ilin payızı tez gəldi. Ağacların yarpaqları sonacan saralmamış yağışlar başladı. Gah görünən, gah yağışdan görünməz olan, buludların daldasına çəkilən Günəşin əvvəlki hərarəti azalıb. Səngərlər düşür yadıma. Belə ayamda səngərlərdə döyüş növbəsi aparan əsgərlərimizi xatırlayıram. İnama, güvəncə, qürura, sevgiyə söykənən duyğularım o yerlərə təşnə könlümü telləndirir. Tellənən könlüm məni səngərlərə çəkir. Payızın gah yağan, gah kəsən yağışından keçəcəm. Bu başaçılmaz ayamda əlim əsgərlərimizin əlində isinəcək. Əsgərlərimizin baxışlarında yenə qətiyyət görəcəm, cəsarət görəcəm, Vətənə qədərsiz məhəbbət görəcəm. Söz sözü çəkəcək, söz sözə söykək olacaq. Bayraqtəpə ovqatının cazibəsinə düşəcəyik. Könlümdən keçir ki, orada sözarası "Yağan yağış yolunuza ağ damlalar səpə-səpə uğurlaya" - deyəm. Kimsə fikrimi şeir misrasıyla tamamlaya:

*Azərbaycan əsgərini*
*qalibiyyət ucalığı -*
*Bayraqtəpə uğurlaya!..*

Bu duyğular, bu istək, bu amal, bu cəsarət düşüncələrimin ağ yoluna dönür. Bu ağ yolun yolçusuyam. Bayraqtəpənin daşına-torpağına gözdolusu baxacağım anlara uğur üstəyəm...

İllərdi gördüklərim, eşitdiklərim, müşahidə etdiklərim ezamiyyətdə düşüncələrimin kəhkəşanı olub: getdiyim yollar əsgər ürəyində "nəfəs dərib", qayıtdığım yolların başlanğıcı əsgər ürəyi olub...

Dumandı, çiskindi. On-on beş addımlığı ayırd etmək mümkün deyil...

Bu da Bayraqtəpə! Bu da yaranışından adsız yüksəklik kimi tanınan yüksəkliyin Bayraqtəpə adlandırılmasının qəhrəmanları, onların davamçıları!

Yağış havası hiss olunur. Hələ ki, "Könlümüzün sevgili məhbubu Vətənimizin" (A.Səhhət) Bayraqtəpə yüksəkliyinə, onun həndəvərlərinə yağış yağmır. Zabit Qafqaz Əsgərov ürəyimdən keçənləri duyubmuş kimi deyir:

- Bayraqtəpə mühüm əhəmiyyətə malikdir. Düşməni buradan nəzarətdə saxlayırıq. İstənilən tərpənişinin qarşısını alırıq.

İnam var səsində və bu inam deyir ki, güclüyük, əsgərlərimizin döyüş və mənəvi hazırlığı yüksəkdir. Ezamiyyətdən əvvəl məhz bu kəlmələri eşitməyin həsrətindəydim.

- Aprel döyüşləri unudulmayacaq. Gücümüzün təsdiqi kimi biz unutmayacağıq, düşmən gücsüzlüyünə görə unutmayacaq. Düşmən daha ağır məğlubiyyətlər yaşayacağını yaxşı bilir, - deyir mayor Qafqaz Əsgərov.

Döyüş növbəsindən qayıdan, söhbətimizin cazibəsinə düşən əsgər Nemət İmanov cəsarətlə, qətiyyətlə "Ancaq hələ çəkilib getmir. Getsələr - yaşayarlar, getməsələr, can itirəcəklər!" - deyir və hansı duyğunun təsiriylə qarşı tərəfə baxır. Qarşıda nə var? - işğalçı, işğalçının daldalandığı səngərlər. "Belə əsgərlər o səngərləri çığnayıb keçməyə qadirdir", - zabit Pərviz Pirməmmədov söhbətə qoşulur. Həm də arzuladığım məqamda qoşulur. İftixarla, bu qənaətimə görə sevinclə-fərəhlə nəmliyi çəkilməyən torpağa göz gəzdirir. Uğur yolunun başlanğıcı olacaq bir əraziyə bu mehrli baxışlar mənə könül xoşluğu verir:

- Bayraqtəpə qələbəsini təkcə Silahlı Qüvvələrimizin döyüş hazırlığının təsdiqi ilə məhdudlaşdırmaq insafsızlıqdı. Həm də ordu ilə xalqın birliyinin dönməzliyinin təsdiqi oldu. Həmin gün komandanlığın əmriylə tabor hazırlıq vəziyyətinə gətirildi. Düşmən davamlı artilleriya atəşi aparırdı. Atəşə atəşlə cavab verdik. Az sonra piyadalarımız hücuma keçdi. Əsgərlərimizdə çaşqınlıq, tərəddüd yoxuydu. Qətiyyətlə vuruşurdular. Hər birinə qəhrəman deməyə haqqımız var, - polkovnik-leytenant o günləri xatırlayınca qürurlandığını hiss etmək çətin deyil...

Nemət İmanova baxır, yeni yaxın gəl.

Nemət İmanovun daxil olduğu taqım Talışın sağ cinahına doğru irəliləyirdi. Döyüş başlanır. Düşmən inadla müdafiə olunur. Məqam düşən kimi irəliləyirlər. Bu gözlənilməzlikdən çaşan düşmən əsgərləri bir anlığa, tək bircə anlığa atəşi səngidir. Onda qətiyyətlə irəli atılırlar. Gizir Şiriyev mina qəlpəsindən, bir qədər aralıda müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu İsmət Məmmədov ürək nahiyyəsindən yaralanır. Nemət başqa bir əsgərlə onları döyüşün içindən çıxardıb döyüşənlərin sırasına qayıdırlar...

Səhər üstümüzə qələbəylə açıldı...

Zabit Pərviz Pirməmmədov qürurla əsgərə baxır:

- Belə əsgərlərlə hamımız qürurlanırıq. Onlar qarşı tərəfi tam nəzarətdə saxlayırlar, döyüş növbəsində düşmənin bütün tərpənişlərini diqqətlə izləyirlər. Bilirlər ki, belə hava şəraitində daha diqqətli olmalıdırlar...

Kapitan Elməddin İmanovun dedikləri də dönməz bir inama söykənib:

- Silahlı Qüvvələrimizdə həyata keçirilən böyük islahatların nəticəsi kimi ordumuz Cənubi Qafqazda ən güclü ordudur. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandanımız İlham Əliyevin "Azərbaycan güclü dövlətdir, Azərbaycanın güclü ordusu vardır" fikirləri bizə düşmən kəsilənlər üçün tutarlı mesajdı. Aprel döyüşləri bu fikrin təsdiqi olmaqla etiraf olunmalı bir reallığı da ifadə eləyir: Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etməyə qadirdir!..

Əsgər Əlirza Əlirzayevin dediklərini söhbətin məntiqi davamı bilirəm: Ordunun Ali Baş Komandana inamı, Ali Baş Komandanın, Müdafiə nazirinin orduya diqqət və qayğısı vətəndaşların ürəyini dağa döndərir. Atam bu yaşında bu günün əsgərlərinə həsəd aparır. "Torpaqlarımızı siz azad edəcəksiniz" - deyir. Biz də məhz bu istəklə xidmət edirik.

Əsgərin son kəlmələrini Silahlı Qüvvələrimizin əsgərlərinin ümumi, dönməz istəyi bilirəm. Torpağa düşən təkəmseyrək damlalar bu qənaətimə aydınlıq suyudu bəlkə?!.

Əsgərlər Rauf Nəbizadənin də, Elçin İsgəndərovun da, Asif Əliyevin də, Kamil Məmmədovun da, Vüsal Əliyevin də, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Emin Cəfərovun da, ... baxışlarından Əlirzanın dediyi kəlmələrin eynini oxumaq çətin deyil...

...Bayraqtəpəyə ad olan qürur üryimi tellendirir. Bu duyğuları Lələtəpədə də yaşamışam. Yaxın vaxtlarda Cıdır düzündə də yaşayacağam, yaşayacağıq...

Bayraqtəpədən enəli dilim də Bayraqtəpə deyir, könlüm də. Əlirzanın, Nemətin, Aqilin, Eminin, Vüsalın, Əlinin,... duruşu, baxışı yadımdan çıxmır. Onların barmağının atıcı silahların tətiyiylə teması Qələbə gününəcən yaddaşımda qalacaq. Hansı istəklə xidmət etdiklərini dedilər. Bu kəlmələr unudulmayacaq...

...Söhbətləşirdik. Arada göy üzünə baxdıq. "Şimşək çaxacaq" - dedim. "Elədi, şimşək çaxacaq..." - dedilər...

Şimşək çaxacağı anın həsrətindəyik...

Şimşəkdən sonra yağış yağır axı...

Bayraqtəpəyə yağış yağır. Bu, yağış adi yağışdı, arzuladığımız yağış deyil...

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

# Tank bölmələri döyüş vərdişlərini təkmilləşdirir



2016-cı il üçün hazırlıq planına əsasən, Silahlı Qüvvələrin bütün tank bölmələrində məşqlər keçirilir.

Məşqlərin əsas məqsədi bölmələrin şəxsi heyətinin tankların düzənlik və çətin keçilən relyeflərdə sürülməsi, döyüş əməliyyatları zamanı idarə edilməsi üzrə vərdişlərin təkmilləşdirilməsidir.

Məşqlər zamanı tank ekipajları zirehli texnikanın ərazidə təbii və süni maneələri dəf etməklə sürülməsi üzrə məşğələləri icra edir, müxtəlif manevrlər və atışlar həyata keçirirlər.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# Silahlı Qüvvələrimizin nümayəndələri beynəlxalq tədbirlərdə iştirak edirlər

Oktyabrın 17-dən 20-dək Brindizi şəhərində (İtaliya) Amfibiya Qüvvələri üzrə ekspert görüşü, oktyabrın 17-dən 21-dək Latina şəhərində (İtaliya) maddi-texniki təminat sahəsində məruzələr üzrə təməl kursu, oktyabrın 17-dən 21-dək Skopye şəhərində (Makedoniya) NATO tərəfdaşlarının arxa cəbhə ekspertlərinin daimi qrupunun görüşü, oktyabrın 17-dən 23-dək Zemyanske Kostolani şəhərində (Slovakiya) "İlkin kütləvi qırğın silahları ilə mübarizə" kursu, oktyabrın 17-dən 27-dək Kaunas şəhərində (Litva) qərargah tibb zabitləri üçün təməl kursu, oktyabrın 17-dən 28-dək Vişkov şəhərində (Çexiya) sülhü dəstəkləmə əməliyyatlarının planlaşdırılması və qiymətləndirilməsi üzrə təlim kursu keçirilir.



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbirlərdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nümayəndələri də iştirak edirlər.



Gənc zabitlərimiz

# "Aprel döyüşləri əsgərlərimizin nəyə qadir olduğunu sübut etdi"

*Hər bir peşə istəklə seçilməlidir. Bir peşəyə ürəkdən bağlı olmasan, bu sahədə uğur qazana bilməzsən. Zabit olmaq isə gənclərimizdən daha artıq məsuliyyət tələb edir, çünki taleyini hərbə bağlayanda Vətəninə gərəkli bir peşə seçdiyinin məsuliyyətini dərindən hiss etməlisən.*

Ümummilli liderimiz Heydər Əliyev ölkə gənclərinə tövsiyələrində qeyd edirdi ki, müstəqil Azərbaycanda hər peşə şərəflidir, ancaq Vətəni qorumaq peşəsi ən şərəfli peşədir. "Zabitlərin simasında onların keçdiyi həyat yolunun nə qədər maraqlı olduğunu görən şəxs Vətəni qorumaq peşəsinə daha çox qoşulmalıdır..."

Haqqında söhbət açacağım gənc zabiti oxucularımıza tanıtmaqda əsas məqsədim onun bir ürək yanğısı ilə öz peşəsinə bağlılığını ifadə etməkdir. Naxçıvan Muxtar Respublikasının Culfa rayonunda doğulub boya-başa çatmış baş leytenant Elmin Aslanov hələ ikinci sinifdə oxuyanda vətənpərvərliyin, Vətən sevgisinin mənasını dərindən hiss edib. Və həyatının erkən çağlarında Vətəni üçün ən gərəkli olan bir peşəni seçmək qərarına gəlib.

- Orta təhsil illərim doğulduğum Teyvaz kəndindəki şəhid Coşqun Hüseynov adına məktəbdə keçib, - deyə müsahibim illərin arxasında qalan uşaqlıq dövrünü xatırlayır. - 1992-ci ilin qanlı Sədərək döyüşlərinin birində şəhid olan bu məzunumuzu yaşından asılı olmayaraq şagirdlərin hamısı yaxından tanıyırdı. Yaxşı xatırlayıram, ikinci sinifdə oxuyanda onun xatirə tədbirində mən də iştirak etdim. Bizə vətənpərvərlik aşılyan müəllimlərimiz Coşqun haqqında danışaraq onun qısa, lakin mənalı ömür yolunun hər birimizə örnək olduğunu dedilər. Belə söhbətləri dinləyə-dinləyə böyüyürdük. Erkən yaşlarımdan başa düşürdüm ki, gərək həyatda mənalı, dəyərli ömür sahibi olasan ki, səni də başqalarına nümunə göstərsinlər.

2005-ci ildə Elmin sənədlərini Heydər Əliyev adına Hərbi Liseyə verəndə onun seçiminə hamı - valideynləri, dostları heyran qalmışdı. Xarakterindəki qətiyyətinə, cəsarətinə bələd olanlar yaxşı bilirdilər ki, o, gələcəyin bacarıqlı zabitlərindən biri olacaq. Hərbi peşəni seçməsindən qürurlu olan bir yeniyetməni hərbi liseydə də hamıya nümunə göstərirlər. Elmin isə ilk kursantlıq dövründə nümunəvi bir zabitə - bölük komandirinə həsəd aparıb. Mayor Niyaz Mehdiyevi onun nəzərində ucaldan əsas amil zabitin son dərəcə vətənpərvər, savadlı və səriştəli olması idi. Tabeliyindəki yeniyetmələrə hərbi peşəni sonsuz sevgilərlə aşılayan zabit onlara "motoatıcı" ixtisasına yiyələnməyi məsləhət bilərdi.

- Mayor Mehdiyev deyirdi ki, ön xətdə düşmənlə üz-üzə dayanmaqla, hər gün, hər an qəhrəmanlıq zirvəsinə ucalmaq üçün imkan qazanırsan, - deyir baş leytenant. - Həm də bizə başa salırdı ki, gərək zabit çətinlik, təhlükə hiss edəndə aciz qalmasın. Əsl zabit cəbhə bölgəsində mətnlik, cəsurluq sınağından çıxmalıdır və burada Vətəni qorumaq peşəsinin sirlərini mükəmməl öyrənməlidir, - deyirdi. Sonradan ali hərbi təhsil aldım və cəbhə bölgəsindəki hərbi hissələrdən birinə taqım komandiri təyin edildim. Xidmətə başlayan gündən mayor Mehdiyev kimi əsl zabit olmağı özümə həyat amalı seçdim.

Sadə bir ailənin yetirməsi olan gənc zabitlə söhbətimizdə ordu sıralarına çağırılan gənclərin təlim-tərbiyəsi ilə bağlı fikirlərini öyrənmək istəyirəm. Bölük komandiri deyir ki, müxtəlif dünyagörüşə malik olan gənclərin hərbi xidmətin özəlliklərinə alışdırılması komandirdən məharət, uctalıq tələb edir. "Mahir Mikayılov adlı bir əsgərim var idi, yoldaşlarından qapalı xarakteri ilə seçilirdi. Hamıdan kənar gəzirdi. Onu yanıma çağırıb böyük qardaş kimi ürəyini ələ aldım. Öyrəndim ki, istədiyi bir qız başqasına nişanlanıb. Onunla bir neçə gün söhbətləşdim. Ata-anaya, Vətənə olan sevginin ötəri bir hissdən nə qədər ali, uca olduğunu ona təmkinlə izah etdim. İndi Mahir bizim bölmənin ən nümunəvi əsgərlərindən biridir, qalıb hərbi xidmətini davam etdirmək fikrindədir."

Baş leytenanta görə, sırada dayanan hər bir əsgərə eyni dərəcədə diqqətli olmalısan. İki ildən artıq bir müddətdə bölük komandiri kimi xidmətini davam etdirən zabit deyir ki, çətin döyüş tapşırıqlarını icra edən əsgər üzərinə düşən vəzifənin məsuliyyətlini, müqəddəsliyini hiss etməlidir. "Komandir olaraq tabeliyimdəki əsgərlərin hər birinə inamım, güvəncim var, belə olmasa, əsgərə döyüş növbətçiliyini etibar etmək olarmı? Təcrübəli əsgərlərimin tərxis olunmalarını biləndə təəssüfləndiyim hallar da olub. Neftçaladan, Bakının Suraxanı rayonundan, Gədəbəydən, Şəmkirdən çox bacarıqlı, hazırlıqlı, vətənpərvər əsgərlərim var idi. Rəşid Zeynalov, Pərviz Bayramov, Amil Rəvanov kimi əsgərlərimi heç vaxt unuda bilmərəm. İnanın, aprel döyüşlərində onların hər biri mənimlə çiyin-çiyinə döyüşmək istəyini bildirirdilər. Bu qısamüddətli döyüşlər əsgərlərimizin nəyə qadir olduğunu sübut etdi. Komandirə başucalığı gətirən ən başlıca amil tabeliyindəki şəxsi heyətin mənəvi dəyərlərə, bəşəri hisslərə sədaqətli olmasıdır. Həyatda böyük-kiçik yerini bilən, yurduna, elinə-obasına bağlı gənc heç vaxt pis döyüşçü olmaz. Liseydə oxuyanda mayor Mehdiyev bizə onu da öyrədirdi ki, bacarıqlı döyüşçü yetişdirmək üçün ilk növbədə özün şəxsi həyatə nümunə olmağı bacarmalısan."

Gənc zabitlə söhbətimizi yekunlaşdırıb səngərdə döyüş növbətçiliyi keçirən əsgərlərin yanına yollanırıq. Müşahidə məntəqəsində torpaqlarımıza keşik çəkən hər bir əsgərlə rastlaşanda komandirinə olan inam hissini üzlərində oxuyuram. Düşünürəm ki, əsl komandirə xas olan xüsusiyyətlər baş leytenantı hamının gözündə ucaldıb...

**Polkovnik-leytenant**
**Arif PƏNAHOV,**
**"Azərbaycan Ordusu"**

# Hamının məqsədi birdir

*Düşmən havadarlarının köməyi ilə işğal etdiyi əraziləri nəzarət altında saxlamaq üçün hər cür vasitələrə əl atır. Heç kimə sirr deyil ki, bu gün Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etmək gücündədir. Dövlətimizin başçısı İlham Əliyev dəfələrlə qeyd edib ki, biz müharibə istəmirik, erməni silahlı birləşmələri tərəfindən işğal olunan torpaqlarımızı sülh, danışıqlar yolu ilə azad etməyin tərəfdarıyıq. Lakin bizim bu cəhdlərimizə baxmayaraq, qarşı tərəf işğalçılıq siyasətindən əl çəkmir.*

Ali Baş Komandan ordumuzu gücləndirmək məqsədilə zəruri olan bütün addımları atıb. Silahlı Qüvvələrin maddi-texniki bazası gücləndirilib, şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının daha da artırılması üçün ordu rəhbərliyinə ciddi tapşırıqlar verilib.

Cəbhənin müxtəlif istiqamətlərində tez-tez oluruq. Şəxsi heyət üçün yaradılan şərait müasir tələblər səviyyəsindədir. Müdafiə naziri general-polkovnik Zakir Həsənov başda olmaqla rəhbər şəxslər daim əsgərlər arasında olur, onların yüksək döyüş əhval-ruhiyyəsində olması üçün qayğı və ehtiyaclarını öyrənirlər. Ön xətdə xidmət edən zabit Anar Rüstəmov deyir ki, onlar qarşıda duran döyüş tapşırıqlarını yerinə yetirməyə hər an hazırdırlar. Şəxsi heyət istər silah-sursat, istərsə də əşya və ərzaq təminatı baxımından yetərincə təmin olunub.



Düşmənlə təmas xəttində kapitan Elçin Ağayev döyüş növbətçiliyində heç bir hadisənin baş vermədiyini bildirdi. Müşahidə postuna yollandıq. Qarşı tərəfi nəzarətdə saxlamağa imkan verən yüksəklikdə əsgərlər müşahidə cihazları vasitəsilə xidmət aparırdılar. Müşahidəçi əsgər Maqsud Vəliyev özünü təqdim etdi və postda olduğu müddətdə düşmən tərəfindən ciddi heç nəyin müşahidə olunmadığını bildirdi. Əsgər ordu sıralarına Cəlilabad rayonundan çağırılıb. Hərbi həyatın sirlərinə lazımınca yiyələndiyini deyən gənc əsgər dedi ki, onlar düşməni bir an belə gözdən qoymurlar. "Düşmən kəşfiyyatı dəfələrlə mövqelərimizə soxulmağa cəhd etsə də, sayıqlığımız nəticəsində ciddi itkilər verərək geri oturdulub", - deyə əsgər bildirdi.

Digər müşahidəçi əsgər Eyvaz Hacızadə də söhbətimizə qoşulur və deyir:

- Bir ildir ki, hərbi xidmətdəyəm. Ön xətdə xidmət etmək son dərəcə məsuliyyətli olmağı tələb edir. Düşmənlə aramızda məsafə çox yaxındı. İmkan verməmişik ki, yağılar bir addım belə irəli keçsinlər. Bu gün əsas məqsədimiz odur ki, erməni tapdağı altında olan torpaqlarımızı azad etmək üçün döyüşlərə atılaq və işğala birdəfəlik son qoyaq.

Ordu sıralarına Lənkəran rayonundan çağırılan əsgər Eyvaz Hacızadə xidmət dövründə yetərincə bilik və bacarıqlara yiyələnib. Onun yüksək döyüş vərdişlərinə malik olduğunu zabit Elçin Ağayev də təsdiqlədi.

Səngərdə döyüş növbəsində duran hər bir əsgər üzərinə düşən vəzifənin məsuliyyətini dərindən dərk edir. Buna görə də heç kəs sayıqlığını bir an belə əldən vermir. Vətənin müdafiəsində sayıq dayanan cəsur əsgərlərimizə uğurlar diləyi ilə ayrılıram.

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

# Vətənpərvərlik Vətən üçündü!..




Gənc əsgərlərin andiçmə mərasimlərində hərbi səhra geyimli 5-7 yaşlı uşaqlar da görmüşəm. Onlardan birindən soruşmuşdum: "Böyüyəndə kim olacaqsan?" "Əsgər olacam!" - demişdi. Bu, vətənpərvərlikdi...

Orta məktəbi bu il bitirən gənc aprel döyüşlərində iştirak edənlərin sırasında olmaq üçün qəbul imtahanı verrmədi - hərbi xidmətə getdi. Bu, vətənpərvərlikdi...

Uşaqların, yeniyetmələrin, gənclərin bu ruhda böyüməsi dövlət üçündü, dövlətçilik üçündü. Bu ruhun möhkəm təməllər üzərində daha geniş şəbəkəli yüksəlişi istiqamətində keçirilən vacib tədbirlər də vətənpərvərlikdi.

Vətənpərvərlik tərbiyəsində sözün - ədəbiyyatın, musiqinin rolu danılmazdır. Ədəbiyyatla musiqinin vəhdətinin ictimailəşdirilməsi də vətənpərvərlikdi...

Azərbaycan Yazıçılar Birliyində (AYB) keçirilən tədbir də bu baxımdan gərəkliyiylə səciyyəviydi - xalq artisti, Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, Müdafiə Nazirliyi hərbi orkestr xidmətinin rəisi, professor general-mayor Yusif Axundzadənin 70 illik yubileyinə həsr olunmuş tədbirin də əsas qayəsi vətənpərvərliyiydi - müstəqilliyi bərpa edilmiş Azərbaycanda hərbi musiqinin, bu sıradan hərbi orkestrin yaradıcısına, bu mühüm strukturu böyük vətənpərvərlik duyğularıyla yerinə yetirən istedadlı bir hərbçiyə ehtiram anlarıydı...

"Vətənpərvərlik tərbiyəsində musiqinin rolu" adlı tədbiri AYB vətənpərvərlik komissiyasının sədri Şahin Musaoğlu açaraq qeyd etdi ki, tədbir eyni mahiyyətli üç amilin vəhdətidi - yubiley, yubilyara həsr olunmuş kitabın ("General Yusif Axundzadə") təqdimatı və yubilyarın ömür yoluna istinadən vətənpərvərlik ruhunun daha da yüksəldilməsi yollarına baxış.

Şahin Musaoğlu yubilyarı toplaşanlara Azərbaycanda incəsənət sahəsində ilk general kimi təqdim etdi və bu təqdimi də vətənpərvərlik məqamı bilmək suç deyil...

Abdulla Qurbaninin ssenarisi və rejissorluğuyla keçirilən kütləvi tədbirlərlə bugünkü tədbir arasında müəyyən bağlılıq görürəm: o tədbirlər Silahlı Qüvvələrin şəxsi heyətinin döyüş ruhunu yüksəldir, ordu ilə xalqın birliyini möhkəmləndirir, orkestr xidməti yubilyarın rəhbərliyi ilə şəxsi heyətin yüksək döyüş ruhunu süsləyir, möhkəmləndirir, əsgərlərimizin ürəyini gözlədiyimiz Qələbə gününə kökləyir.

Zamanında döyüşlərə musiqinin (marşların) müşayiətiylə gedərdilər; sərkərdələr marşları döyüş ruhu bilərdi. İndi də belədi - ordumuzda hər gün döyüş ərəfəsidi və istər marşlar, istərsə də digər musiqilər əsgərlərimizin döyüş ruhunun - vətənpərvərliyinin xidmətindədi. General-mayor Yusif Axundzadənin rəhbərliyiylə.

Yusif Axundzadə uzun illərdi Silahlı Qüvvələrimizin orkestr xidmətinə rəhbərlik edir, istedadlı gənclərin bu xidmətə cəlb olunmasında, böyük tədbirlərin keçirilməsində müstəsna xidmətləri var. Onun bəstələri də, bu və ya digər mahnının ruhuna orkestr vasitəsilə yeni, bənzərsiz yaşam verməsi də, Azərbaycanla diplomatik əlaqələri olan dövlətlərin himnlərinin eyni həssaslıqla səsləndirilməsi də vətənpərvərlikdi, həm də kimsəyə bənzəmədən yaşadılan vətənpərvərlikdi...



Xalq artistləri Ramiz Quliyev, Oqtay Mirqasımov, Natəvan Şeyxova, Mərkəzi Zabitlər Evinin əməkdaşı Zəminə Xınalı, şair Oqtay Rza, yazıçı-jurnalist Zemfira Məhərrəmli, şərqşünas alim, elmlər doktoru Tofiq Cahangirov və başqaları Yusif Axundzadənin ömür yolundan, dəyərli yaradıcılığından danışdılar. Hər fikirdə ehtiram, hər fikirdə vətənpərvərlik işığı, hər fikirdə Silahlı Qüvvələrimizə sayğı, hər fikirdə Qələbəyə inam.



Tədbirdə Qarabağ müharibəsi veteranlarının iştirakını bir mətləbə düşən işıq bildim: Yusif Axundzadənin yenidən işlədiyi, yaxud yazdığı mahnılar, marşlar zamanında döyüşənlərin döyüş ruhunun səngərdaşı olub. Bu mənada Yusif Axundzadənin yaradıcılığının vətənpərvərlik səviyyəsini aydınlığıyla görürük, duyuruq, sevirik, yaşadırıq...

Çıxışların qayəsini belə ümumiləşdirməyə cəsarət edirəm və insafən haqlıyam: qazanacağımız Qələbədə general-mayor Yusif Axundzadənin də xidmətləri olacaq!..

Yusif Axundzadə elə bir janr üçün yaşayıb ki, bu janr bilavasitə ruhun çağırışı üçündü, ruhun səfərbəredici xarakteri üçündü. Yubilyar ömrünün 52 ilini belə yaşayıb: Vətənin hər bir vətəndaşı istənilən an döyüşə hazır olduğunu hiss eləsin!..

Tədbir iştirakçıları da, general-mayor Yusif Axundzadə də belə bir tədbirin keçirilməsinə şərait yaratdığına görə Azərbaycan Yazıçılar Birliyinə, onun sədri xalq yazıçısı Anara minnətdarlığını bildirdi...

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist,**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Şəhid hərbçi, tankçı Rahim Tağıyevin medalı oğluna təqdim edilib



*Azərbaycan Ordusunun şəhid olan hərbçisi Tağıyev Rahim Qara oğlu ölümündən sonra "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalı ilə təltif edilib.*

AZƏRTAC xəbər verir ki, Mingəçevir şəhərindəki Şəhidlər xiyabanında dəfn edilən tankçı Rahim Tağıyevin təltif olunduğu medal oktyabrın 17-də oğluna təqdim olunub.

Müdafiə Nazirliyinin nümayəndələri, Mingəçevir şəhər İcra Hakimiyyətinin kollektivi, hüquq-mühafizə orqanlarının əməkdaşları, onun xidmət etdiyi hərbi hissənin rəhbər şəxsləri və şəhər ictimaiyyətinin nümayəndələri əvvəlcə şəhid Rahim Tağıyevin ailə üzvləri ilə görüşüblər.

Mərasimdə çıxış edənlər bildiriblər ki, şəhid qanına boyanan Azərbaycan torpaqları Silahlı Qüvvələrimiz tərəfindən tezliklə düşmən işğalından azad olunacaq və şəhidlərimizin ruhu o zaman dinclik tapacaq.

Şəhidin hərbçi yoldaşları çıxış edərək, Rahim Tağıyevin igid döyüşçü olduğunu bildiriblər.

Görüşdə Müdafiə Nazirliyinin nümayəndəsi polkovnik Nazim Əhmədov çıxış edərək şəhid tankçı Rahim Tağıyevin döyüş yolundan, Azərbaycan Ordusunun cəbhədəki uğurlarından danışıb, şəhidlərin qanının yerdə qalmayacağına və torpaqlarımızın işğaldan azad olunacağına inamını bildirib.

Polkovnik Nazim Əhmədov Rahim Tağıyevin ölümündən sonra təltif olunduğu "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalı oğlu Nihad Tağıyevə təqdim edib.

Qeyd edək ki, Azərbaycan Ordusunun hərbi qulluqçusu Rahim Tağıyev aprelin 2-də cəbhənin Tərtər-Ağdərə istiqamətində Ermənistan-Azərbaycan qoşunlarının təmas



xəttində döyüş tapşırığını yerinə yetirən zaman düşmən tərəfindən açılan atəş nəticəsində ağır yaralanıb. Tankçı iyulun 10-da yerləşdirildiyi hərbi hospitalda dünyasını dəyişib. Əslən Şəki rayonundan olan, ailəsi ilə birlikdə Mingəçevirdə yaşayan, müddətdən artıq xidmət edən hərbi qulluqçu Rahim Tağıyevin nəşi ailəsinin istəyi ilə Mingəçevir şəhərindəki Şəhidlər xiyabanında torpağa tapşırılıb.

# “Qələbə günündə qalib ordumuzun sıralarında olmaq istəyirik”

*Hərbi xidmət gənclərin Vətən qarşısında müqəddəs borcudur. Bu borcu, sözün əsl mənasında, dərk edib öz xidməti vəzifəsini layiqincə yerinə yetirənlər hamımızın qürurumuz olan əsgər və matroslarımızdır. Onlar müqəddəs hərbi andı qəbul edib şərəflə ana torpağı qorumağa yollanarkən qəlblərinin hər bir çırpıntısında Vətən adının ucalığını duyurlar. Vətənin xidmətində dayanmaq hər bir azərbaycanlının ən müqəddəs amalıdır. Çünki Vətən hamımızındır. Bu yaxınlarda Hərbi Dəniz Qüvvələrində olarkən hərbi xidmətdən tərxis olunmağa hazırlaşan matroslarla görüşüb söhbət etdim. Onların düşüncələri əsasında ordu həyatının əhəmiyyətini, hərbi xidmət dövründə qazandıqları vərdişləri öyrənmək, ürək sözlərini dinləmək mənə çox maraqlı idi.*



- Ordu həyatı sizə nə verdi? Hərbi xidmətdən hansı təəssüratlarla ayrılırsız? Matroslar bu suallara müxtəlif baxış bucaqlarından cavablandırmağa çalışdılar.

**Elvin Rzaquliyev:** Vətən qarşısında övladlıq borcumu verməkdən çox qürurluyam. Biz bu kişilik məktəbində mərdliyi, dözümlülüyü, silah və texnikalarla davranış qaydalarını öyrəndik. Atam Xocalıdan, anam Şuşadandır. Valideynlərim daim Vətənimizin dilbər güşəsi olan Qarabağ haqqında həsrətlə danışır, ata-baba yurdunun azad olunacağı günün intizarındadırlar. Aprel döyüşləri baş verən günlərdə damarlarımda qanım coşurdu. Mən də ata-baba yurdumun işğaldan azad olunması üçün istənilən vaxt döyüşə atılmağa hazıram.

**Elmar Əliyev:** Şəmkir rayonunun Çinarlı qəsəbəsində anadan olmuşam. Atamın işi ilə əlaqədar orta təhsilimi Rusiyada alsam da, azərbaycanlı olduğumu, bir an belə Vətənimi unutmamışam. Vətənimə dönərək müqəddəs övladlıq borcumu verməkdən qürurluyam. Hərbi xidmətdə bir çox həyati vərdişlər qazandım. İlk öncə Vətən sevgisinə yiyələndim, dar gündə yurdumuzu qorumağın sirlərini öyrəndim. Hərbin qayda-qanunlarını bizə aşılayan komandirlərimizi heç zaman unutmayacağam.

**Cəlal Musayev:** Hərbi xidmətə Tovuz rayonundan çağırılmışam. Əyyublu kəndindəki şəhid Sahib İsgəndərov adına 1 saylı orta məktəbi bitirmişəm. Vətənimin azadlığı və ərazi bütövlüyü uğrunda şəhid olmuş igid oğulların ruhu qarşısında mübariz əsgər və layiqli vətəndaş olacağıma söz vermişəm. Qardaşım ön xətdə xidmət edib, söhbətlərində daim deyərdi ki, yalnız ordu həyatını - kişilik məktəbini keçdikdən sonra yaşamağın mənasını anlayacaqsan. Bəli, bu gün artıq mənim də həyata baxışım dəyişilib. Hərbi xidmətdə intizamlı olmağa, qayda-qanuna riayət etməyə, sözü bütövlük, mərdlik, dözümlülük kimi mənəvi keyfiyyətlərə alışdım.

**Vair Vəlibəyov:** Haçansa ağlıma gəlməzdi ki, mən də mavi gözlü Xəzərimizin qoynunda xidmət edəcəyəm. Milliyyətcə ləzgi olsam da, Vətənim Azərbaycandır. Məni bir övlad kimi qoynunda böyütmüş Vətənimin hər qarış torpağı üçün daim fədakarlıq göstərməyə hazıram. Hərbi xidmət dövründə ərazi bütövlüyümüzə yönəlmiş hər hansı qəsdə qarşı mübarizə aparmağı, silahların sirlərini öyrəndik. Həyatda məsuliyyətli olmağı da hərbi xidmət dövründə dərindən dərk etdim.

**Anar Əlizadə:** Biləsuvar rayonunun Xırmandalı kəndində dünyaya göz açmışam. Uşaq yaşlarımdan ən böyük arzum bir gün əsgər forması geyinərək Vətənimin keşiyində dayanmaq olub. Əmim oğlu gənc zabitdir. Hər dəfə ordu haqqında, hərb sənətinin sirlərindən, silahlardan danışardı mənə. Artıq müddətli həqiqi hərbi xidmətimi şərəflə başa vurmuşam. İndi isə taleyimi yenidən orduya bağlamaq həyat amalıma çevrilib. Məhz hərbi xidmət məndə Vətəni qorumaq peşəsinə bitməyən sevgi, maraq yaratdı.

**Taleh Əsədov:** Hərbi xidmət məni də bir çox müsbət keyfiyyətlərə alışdırdı. Məzuniyyətə gedərkən valideynlərim də məndə bəzi dəyişiklikləri hiss etmişdilər. Kiçik qardaşım məktəbdə, dostlarının arasında "Mənim qardaşım əsgərdi" deyərək qürurlanırdı. İnşallah, zamanında bu sözləri mən də onun üçün söyləyəcəm. Hərbi xidmətdə özümə çoxlu dost, sirdaş qazandım. Adətən əsgərlik dostlarına el arasında "çətin günün dostu" deyirlər. Çünki bu dostluq neçə illər keçsə belə unudulmur. Bu bizə babalarımızın, atalarımızın xatirələrindən də məlumdur. Matros yoldaşım Elvinlə söz vermişik ki, aramızda yaranan bu qardaşlığı ailə dostluğuna çevirək və ömür boyu davam etdirək.

*Vətənimizə övlad borcundan şərəflə çıxan gənclərlə söhbətimdə də onların hər birinin dediyi sözlər mənə xoş ovqat bağışladı: "Bizim çox güclü ordumuz var. Baxmayaraq ki, biz tərxis olunuruq, lakin hər an Ali Baş Komandanın bircə əmri ilə silaha sarılmağa hazırıq. Qələbə günündə qalib ordumuzun sıralarında olmaq istəyirik."*

*Söhbətləşdiyim gənclərin gözlərindəki əzmi, qətiyyəti hiss etdikdən sonra bir həqiqətə də inandım ki, onlar cəmiyyətimizin fəal vətəndaşları olacaqlar.*

**Leytenant Günay TAĞIYEVA, "Azərbaycan Ordusu", foto çavuş N.PƏNAHOVUNDUR**

# Hərbi yeniliklər, ənənələr



Zirehli “Dozor-B” transportyoru

Ukraynanın Dövlət Müdafiə Sənayesi Konserninin mətbuat xidmətindən verilən məlumata görə, "Dozor-B" zirehli transportyorlarının modernləşdirilməsi Şimali Atlantika alyansına görə uyğunlaşdırılacaq. Konserndə maşınların modernləşdirilməsi zamanı onların rabitə, mühafizə sistemləri dəyişdiriləcək, silahlanma sistemi isə vacib olan kalibrlərlə vahid şəklə salınacaq. Zirehli transportyorlar Ukraynanın Silahlı Qüvvələrində və digər ölkələrdə istifadə olunması üçün hesablanıb. Verilən məlumata görə, maşın mobil və texnoloji zirehli texnikadır. Distansion idarə olunan, televizion və teplovizion kameralı BPU-12,7 pulemyot qurğusu, HCBT-12,7 pulemyotu ilə təchiz edilib.

Zirehli "Dozor-B" transportyoru özündə 4x4 təkər formulalı zirehli maşını təsvir edir. Maşın şəxsi heyətin, yüklərin daşınması və müxtəlif silahlanma növünün, rabitə vasitələrinin və xüsusi avadanlıqların quraşdırılması üçün təyin edilib. Zirehli transportyordan Silahlı Qüvvələrin xüsusi bölmələrinin kəşfiyyat, patrul xidməti tapşırıqlarının yerinə yetirilməsində, sülhməramlı və hərbi əməliyyatlarda əsas nəqliyyat vasitəsi kimi istifadə edilə bilər. Zirehli transportyor günün müxtəlif vaxtlarında öz funksiyasını yerinə yetirməyə, çətin keçilən ərazilərdən və yerlərdən asanlıqla keçməyə, bütün maneələri dəf etməyə qadirdir. Taktiki-texniki xüsusiyyətləri: döyüş çəkisi 6300 kiloqram, heyəti (desant) 11 nəfər, maksimal sürəti saatda 90-105 kilometr. Silahlanmasına HCBT-12,7 pulemyotu daxildir və döyüş komplekti 450 patrondan ibarətdir.

**Hazırladı: Svetlana YUSUBOVA, "Azərbaycan Ordusu"**

# Xəbərlər:
## hadisələr, faktlar

### Hakkaridə terror: 1 əsgər şəhid olub



Türkiyənin Hakkari vilayətində terrorçuların yola yerləşdirdiyi bombanın partlaması nəticəsində 1 əsgər şəhid olub.

Əl istehsalı olan partlayıcı Hakkari-Van avtomobil yolunda mina axtaran əsgərlər tərəfindən aşkarlanıb. Ətrafda təhlükəsizlik tədbirləri görülsə də, partlayıcının partladılması zamanı 1 əsgər həlak olub.

Bölgədə terrorçulara qarşı əməliyyata başlanılıb.

### Mosul ətrafında gedən döyüşlərdə 25 “Peşmərgə” döyüşçüsü həlak olub



Mosul uğrunda davam edən döyüşlərdə həlak olan kürd döyüşçülərinin sayı 25 nəfərə çatıb.

Əməliyyatların gedişində "Peşmərgə" döyüşçüləri 10 yaşayış məntəqəsini İŞİD yaraqlılarından təmizləyərək bəzi yerlərdə Mosul şəhərinə 6 kilometrə qədər yaxınlaşa bilib.

Döyüşlərdə İraq Kürdüstanının vitse-prezidentinin oğlu Şalau Kosrad Rəsulun yaralandığı məlum olub.

Mosulun İŞİD terror qruplaşmasından azad olunması məqsədi daşıyan döyüşlərdə Türkiyənin İraqda yerləşən Başika düşərgəsində təlim keçmiş 2 min nəfər də iştirak edir. Ümumilikdə isə Mosul əməliyyatına 80 minədək döyüşçünün cəlb olunduğu bildirilir. Onlara ABŞ-ın başçılıq etdiyi beynəlxalq koalisiyanın hərbi hava qüvvələri, hökumət aviasiyası və artilleriya birləşmələri dəstək verir. Son məlumata görə, əməliyyata Türkiyə aviasiyası da qoşulub.

### Rusiya-Misir birgə antiterror təlimləri keçiriləcək



Yerli KİV-lərin verdiyi məlumata görə, oktyabrın 15-dən 26-dək Misirdə "Dostluğun müdafiəçiləri - 2016" adlı Rusiya-Misir birgə antiterror təlimləri keçiriləcək.

Rusiyanın və Misirin hava-desant qoşunları (HDQ) Afrika səhraları şəraitində müasir paraşüt sistemlərindən istifadə etməklə ilk dəfə birgə kütləvi paraşüt desanti tətbiq edəcəklər. Təlimlərdə 15 helikopter və təyyarədən, habelə 10 vahid döyüş texnikasından istifadə olunacaq. Bildirilir ki, rusiyalı desantçılar Misirdəki hərbi poliqonlardan birinin ərazisinə "İl-76" hərbi nəqliyyat təyyarələri ilə çatdırılıb. Təlimlərdə hər iki tərəfdən 500-dən çox desantçı əsgər iştirak edir.

### Dünyada ən iri dinozavr-titanozavrlar Orta Asiya ərazisində yaşayıb



Rusiya və Amerika paleontoloqları sübut ediblər ki, dünyada ən iri dinozavr-titanozavrlar müasir Orta Asiya ərazisində yaşayıb.

Rusiya alimi Aleksandr Averyanov Qızılqumda nəhəng titanozavrların daşlaşmış qalıqlarını tapdıqdan sonra belə nəhəng dördayaqlı və uzunboğazlı heyvanların uzunluğunun 25-30 metr, ağırlığının isə 100 tondan çox olduğu qənaətinə gəlib.

Bildirilib ki, Orta Asiya ərazisində bu qədim heyvanların 200 növü aşkar edilib və onlar bu torpaqlarda 90 milyon il əvvəl yaşayıb. Alimlər belə qənaətə gəliblər ki, bu heyvanların növlərinin sistemləşdirilməsi gələcəyə "pəncərə" açacaq və təbiətin 90 milyon il əvvəlki vəziyyətini təsəvvür etməyə imkan verəcək.

**AZƏRTAC-ın materialları əsasında**

AZƏRBAYCAN ORDUSU



*Könlüm şeir istəyir*

# Azərbaycan deyirik

Yurdumuzun tarixini, dünənini, bu gününü və sabahını tərənnüm edən şeirləri daha böyük həvəslə oxuyuruq. "Azərbaycan", "Torpaq", "Vətən" və başqa mövzular şairlərimizin yaradıcılığının başlıca qayəsi olub. Abbas Səhhətin "Vətən" şeiri, Səməd Vurğunun "Azərbaycan" şeiri, ... bu qəbildəndir. İllər keçsə də, bu sevgi azalmır. Məmməd Arazın şeirləri də dillər əzbəridir.

Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri də Tofiq Bayramdır. Lirik şair kimi tanınan Tofiq Bayramın şeirlərinə onlarla mahnı bəstələnib. "Qadın ürəyi", "İlk məhəbbətim" və başqa mahnılar dillərdən düşmür. Təbiidir ki, mahnını sevdirən, yaşadan onun sözləridir.

Tofiq Bayramın vətənpərvərlik mövzusunda yazdığı şeirlərdə də dərin lirizm vardır. "Azərbaycan deyəndə" şeiri kimi. Şeirin hər misrası, hər bəndi oxucunu riqqətə gətirir.

**"Azərbaycan Ordusu"**

## Azərbaycan deyəndə

(ixtisarla)

Vətən mənim bu günüm,
Sabahkı toy-düyünüm.
Haqqım var ki, öyünüm
Azərbaycan deyəndə!
Ürəklərdə döyünüm,
Azərbaycan deyəndə!

Mən Vətənə, "Füzuli,
Abbas Səhhət" deyirəm.
Mən Vətənə, "Sabiri
Doğan qeyrət" deyirəm.
Mən Vətənə, "Üzeyir,
Müşfiq, Səməd" deyirəm,
"Günəş kimi müqəddəs
Bir həqiqət" deyirəm,
Azərbaycan deyəndə!

Dostdan sovqat, muştuluq,
Düşməndən bac alaram,
Azərbaycan deyəndə!
İşıq sütunu kimi
Sabaha ucalaram,
Azərbaycan deyəndə!

Körpüləri, sədləri
Sinəmlə parçalaram.
Sərhəd məftillərində,
Bu kobud əllərimlə
Bir muğamat çalaram
Azərbaycan deyəndə!

Azərbaycan! - Bu nida
Qayaları silkələr.
Sal daşların köksündə
Çiçək bitər, gül bitər
Azərbaycan deyəndə!..

## Türkiyənin "Milliyyət" qəzeti Ermənistanın Qarabağdakı talançılıq siyasətindən yazır

*Türkiyənin nüfuzlu "Milliyyət" qəzeti Azərbaycan Xarici İşlər Nazirliyinin işğal edilmiş ərazilərimizdə Ermənistan tərəfinin qanunsuz fəaliyyətinə dair yaydığı hesabat əsasında "Qarabağın təbii sərvəti talanaraq Ermənistana daşınır" sərlövhəli məqalə yayıb.*

"Qanunsuz gəlir", "Tarix məhv edilir", "Sarkisyanla əlaqəli...", "Araz layihəsi" və "Suriyalı ermənilər" alt başlıqları ilə türkdilli oxuculara təqdim olunan məqalədə diqqətə çatdırılır ki, Azərbaycan torpaqlarının bir hissəsi Ermənistan tərəfindən hərbi təcavüzə məruz qalıb və bu ərazilər beynəlxalq hüquqa zidd olaraq işğal altında saxlanılır. Qəzet yazır ki, işğal altındakı Azərbaycan torpaqlarında yerləşən su elektrik stansiyalarında istehsal olunan elektrik enerjisi qanunsuz olaraq Ermənistana nəql edilir. Məqalədə faktlar əsasında göstərilir ki, bütün bu qanunsuz fəaliyyəti gerçəkləşdirən şirkətlər və şəxslər birbaşa təcavüzkar dövlətin başçısı Serj Sarkisyana bağlıdır.

Məqalədə, həmçinin, Suriya ermənilərinin işğal altındakı Azərbaycan torpaqlarında qanunsuz məskunlaşdırılması, erməni diaspor təşkilatlarının bu işə verdikləri dəstək və s. məsələlərdən də bəhs olunur.

**AZƏRTAC**



*Əsgər Nemət İmanov nümunəvi, yüksək döyüş hazırlığına malikdir. Aprel döyüşlərində də iştirak edib. İki yaralını döyüşdən çıxartdıqdan sonra yenidən səngərə qayıdıb. Komandirləri onun xidmətindən razıdırlar. O, Hərbi Nizamnamələrin tələblərini nümunəvi yerinə yetirir. "Qələbə gününü əsgər olaraq görmək istəyirəm", - deyir. Bu, onun və bütün xidmət yoldaşlarının timsalında Azərbaycan əsgərinin arzusudur. Azərbaycan əsgəri də qələbə gününü gözləyir.*

**"Azərbaycan Ordusu"**

*Maraq dünyamız*

# Ən qəddar hökmdarlar

*Dünya tarixində bir çox hökmdarlar başqa insanların əzab və iztirablarına tamamilə biganə yanaşırdılar, bəzi qəddar hökmdarlar belə əzablardan hətta həzz alırdılar və müəyyən sosial qrupları hər cür alçaltmaq və diskriminasiya etməyə çalışırdılar. Dünya tarixində ən qəddar hökmdarlardan bəzilərini təqdim edirik.*

## Oliver Kromvel

Oliver Kromvel - İngiltərənin 17-ci əsrdə siyasi və hərbi lideri. O, Şotlandiya və İrlandiya katoliklərinə qarşı nifrəti ilə tanınır. İrlandiyada Kromvelin qoşunları katolik din xadimləri də daxil olmaqla 3500-ə yaxın insanı öldürüb. Onun əmri ilə Veksfordda daha 3500 insan qətlə yetirilib. Ümumilikdə, İrlandiya kampaniyası çərçivəsində təxminən 50 min insan qətlə yetirilmiş və didərgin salınmışdır. O, Şotlandiyanın Dandi şəhərində şəhər limanını məhv etmiş və 2 min insanı qətlə yetirmişdir.

## Maksimilian Robespyer

Maksimilian Fransua Mari İsidor de Robespyer siyasətçi, natiq, hüquqşünas və Fransa inqilabının çox vacib fiquru olub. Ən qəddar hökmdarlar siyahısında yer alması da təsadüfi deyil. O, Fransada 40 min insanın həyatına son qoymuş "Terror Əsri"nə rəhbərlik edib. Bir çox aristokrat, din xadimi, orta təbəqə təmsilçiləri və kəndlilər onun göstərişi ilə məhv edilib. Özünəməxsus "ədalət məhkəməsinin" çoxsaylı aktlarını həyata keçirdiyinə görə Robespyerin 1794-cü ildə istintaqsız və məhkəmə hökmü olmadan boynu vurulmuşdur.

## İvan Qroznı

İvan Qroznı və ya Dördüncü İvan Vasilyeviç - rus çarı, demək olar ki, indiki Rusiyanın yaradıcısıdır. Sibirin, Kazanın və digər ərazilərin zəbt edilməsi, hakimiyyətin mərkəzləşdirilməsi və qanunlar toplusunun yaradılması bundan daha məşhur olanı onun qəddarlığıdır. Məsələn, Novqorodun mühasirəsi. Sakinlərin xəyanətindən və onların Polşa ilə sövdələşməsindən şübhələnən çar dairəvi hündür divarın tikilməsini əmr edib. Hər gün çarın əsgərləri şəhərdən 1500 təsadüfi adam seçib qətlə yetiriblər.

**Hazırladı:
çavuş
Rəşad ƏMRAHOV**

# İdman

## Triatlonçumuz Avropa kuboku yarışlarında gümüş medal qazanıb



Azərbaycanın triatlon üzrə yığmasının üzvü Rostislav Pevstov Alaniyada keçirilən Avropa kuboku yarışlarında gümüş medal qazanıb.

1500 metrlik su məsafəsini idmançımız 18,49 dəqiqəyə başa vurub. Ardınca isə 40 kilometrlik veloməsafəni 56,19 dəqiqəlik nəticə ilə qət edib. Nəhayət, yarışların son mərhələsi - 10 kilometrlik qaçış zolağını R.Pevstov 31,37 dəqiqəyə başa vurub. Ümumi hesablamada R.Pevstov 1 saat 47 dəqiqə 45 saniyə göstərici ilə ikinci yerə sahib olub.

## Güləşçilərimiz "Qitələrarası Kubok" beynəlxalq turnirində 1 gümüş medal qazanıblar



Dağıstanın Xasavyurt şəhərində sərbəst güləş üzrə 8-ci "Qitələrarası Kubok" beynəlxalq turniri keçirilib.

Azərbaycan Güləş Federasiyasından verilən xəbərə görə, pəhləvanlarımız turniri 1 gümüş medalla başa vurublar.

Turnirdə 65 kiloqram çəkidə mübarizə aparan Məhəmməd Müslümov finaladək bütün rəqiblərindən üstün olub. Həlledici görüşdə yerli idmançı ilə qarşılaşan təmsilçimiz məğlub olub və gümüş medalla kifayətlənib.

Eyni çəki dərəcəsində mübarizə aparan digər güləşçimiz Mahal Novruzov isə bürünc medal uğrunda görüşdə uduzub və turniri beşinci sırada tamamlayıb.

## Karateçilərimiz Bolqarıstanda uğurla çıxış ediblər



Bolqarıstanın Burqas şəhərində karate do üzrə dünya çempionatı keçirilib.

55 ölkədən mindən çox idmançının mübarizə apardığı yarışa ölkəmiz 10 karateçi ilə qatılıb.

Çempionatda respublikamızı təmsil edən atletlərdən beşi "Neftçi" İdman Klubunun yetirməsi olub. Onlardan Sədi Namazov (21-39 yaş, 85 kq) kata yarışlarında dünya çempionu adını qazanıb, kumitedə isə üçüncü pillədə qərarlaşıb. Eyni yaş qrupunda Cavid Namazov (87 kq) və Həsən Quliyev (87 kq-dan yuxarı) kumite yarışlarında bürünc medala yiyələnib.

Klubun digər karateçisi Əziz Abbasov (16-17 yaş, 60 kq) isə kumite yarışında dünya çempionatının qızıl medalına sahib olub.

## Ağır atletlərimiz Malayziyada güclərini sınayacaqlar



Oktyabrın 19-25-də Malayziyanın Penanq şəhərində yeniyetmələr arasında ağır atletika üzrə 6-cı dünya birinciliyi keçiriləcək. Yarışda 100-dən çox ölkədən 370 atlet (155 qadın, 215 kişi) mübarizə aparacaq.

Birincilikdə Azərbaycan yığmasının üzvləri də körpücük üzərinə çıxacaqlar. Yarışda ölkəmizi Rüstəm Qasımov (50 kq), Kənan Xəlilov, Cəbrayıl Abuzərli, Elvin Abdullayev (hər üçü 56 kq), İsa Rüstəmov, Fuqan Əliyev (hər ikisi 62 kq), Tarmenxan Babayev (69 kq), Mayıl Şükürlü (77 kq), Sənan Mirzəyev (85 kq), Ümidvar Bayramlı (94 kq), Səbinə Əzimova (53 kq), Lalə Rzazadə və Sevər Məhərrəmzadə (hər ikisi 58 kq) təmsil edəcəklər.

**AZƏRTAC-ın materialları əsasında**


| Məsul katib | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| polkovnik-leytenant İlham BEHBUDOV | Baş redaktor: (012) 510-71-97 (faks); Baş redaktorun müavini: (012) 510-64-27; Məsul katib: (012) 510-71-98 Məktublar şöbəsi: (012) 510-64-28; | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | Rəşid HÜSEYNOV | Nərimanov Rayon Xəzinədarlığı Kod: 200189 VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır. Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz. | Lisenziya № 361 Sifariş № 535 Nüsxə 4650 |